Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “___”“________” 2023-cü il tarixli _____________nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**5 və daha çox uşağı doğub, övladlığa və (və ya) qəyyumluğa götürüb 8 yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlara yaşa görə əmək pensiyalarının təyin edilməsi xidmətinin**

**PASPORTU**

**Xidmətin adı:**

- 5 və daha çox uşağı doğub, övladlığa və (və ya) qəyyumluğa götürüb 8 yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlara yaşa görə əmək pensiyalarının təyin edilməsi

**Xidmətin məzmunu:**

- 5 və daha çox uşağı doğub, övladlığa və (və ya) qəyyumluğa götürüb onları 8 yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlara yaşa görə əmək pensiyasının təyin edilməsi

**Xidmətin aid olduğu təsnifat:**

- Əmək pensiyası

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (Nazirlik) tabeliyində Dövlət Sosial Müdafiə Fondu (Dövlət Sosial Müdafiə Fondu)
- Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)

**Xidmətin həyata keçirilmə formaları:**

- Elektron qaydada
- Xidmət yerinə şəxsən və ya onun nümayəndəsi gəlməklə

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

- Elektron qaydada
- Çağrı mərkəzi vasitəsilə
- Birbaşa (yerində)
- Poçt vasitəsilə

- SMS vasitəsilə

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

- 5 və daha çox uşağı doğub, övladlığa və (və ya) qəyyumluğa götürüb 8 yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlara yaşa görə əmək pensiyası təyin edilirvə ya təyin edilməsindən imtina edilir

**Xidmət istifadəçisi barədə məlumat:**

- Azərbaycan Respublikası vətəndaşları
- Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

- Müddət: Proaktiv qaydada dərhal, digər hallarda 10 (on) gün (pensiyanın təyin olunmasından imtina edildiyi halda 5 (beş) gün) müddətində
- Xidmət haqqı: Ödənişsiz

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

- Elektron qaydada 7/24
- Digər hallarda iş günlərində iş saatları ərzində

**Xidmətin göstərilmə yeri:**

- Dövlət Sosial Müdafiə Fondunun Mərkəzi və Regional Filiallarının inzibati binası
- DOST mərkəzləri və filiallarının inzibati binası

**Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları:**

- Sənədlərin natamamlığı
- Hüquqi əsasın olmaması

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması**:

- Şəxsiyyəti təsdiq edən sənədin surəti (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə Azərbaycan Respublikasının ərazisində daimi yaşayış hüququ verən icazə vəsiqəsinin surəti)
- Sığorta stajına dair sənədlərin (əmək kitabçası, diplom, hərbi bilet, əyani təhsil və ya hərbi xidmət barədə arayış və s.) surəti
- Qadının 5 və daha çox uşaq doğub onları 8 yaşınadək tərbiyə etməsi və böyütməsi barədə yerli icra hakimiyyəti başçısının müvafiq inzibati ərazi dairəsi üzrə və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin arayışı

- 5 və daha çox uşağı övladlığa götürüb 8 yaşınadək tərbiyə edən və böyüdən qadınlara münasibətdə: övladlığa götürmə barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin surəti
- Uşaqların doğum haqqında şəhadətnamələrinin və şəxsiyyət vəsiqələrinin surəti
- Müraciət nümayəndə vasitəsilə edildikdə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənəd
- Xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədləri elektron qaydada əldə etmək mümkün olmadıqda kağız üzərində təqdim edilir.

**Xidmətin həyata keçirilməsi üzrə inzibati prosedurlar:**

- Əməkdaş tərəfindən şəxsin və ya onun nümayəndəsinin təqdim etdiyi sənədlərin tamlığı yoxlanılır
- Sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, müraciətdə qeyd olunmuş əlaqə vasitələrindən birinə onun daxil olduğu tarixdən 5 (beş) iş günü müddətində həmin çatışmazlıqların aradan qaldırılması müddəti göstərilməklə bu barədə bildiriş göndərilir.
- Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müraciətdə qeyd olunmuş ünvana poçt vasitəsilə, yaxud Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemində (MEİS) olan əlaqə vasitələrindən (elektron poçt ünvanı və ya sms vasitəsilə) birinə məlumat göndərilməsi şərtilə müraciət edən şəxsin əmək pensiyasının təyin edilməsi ilə bağlı müraciətinə yenidən baxılır və hüququnun yarandığı tarixdən pensiya təyin edilməsi və yaxud pensiya təyin edilməsindən imtina olunması barədə qərar qəbul edilir.

**Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar:**

- "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-ci və 72-ci maddələrinə əsasən xidmət istifadəçiləri xidmətin göstərilməsindən edilən imtinadan yuxarı səlahiyyətli orqana inzibati qaydada şikayət verə bilər. Şikayət kağız üzərində və ya elektron qaydada tərtib oluna bilər. İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə daxil olduğu gündən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və mahiyyəti üzrə qərar qəbul edilir. Müəyyən edilmiş müddət ərzində qərar qəbul edilmədikdə və ya qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

- “Elektron hökumət” portalı
- MEİS
- “e-sosial” internet portalı

**Xidmətin elektronlaşma səviyyəsi:**

- Qismən elektronlaşdırılıb

**Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**

- Avtomatlaşdırılmayıb